# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## SOSİAL AUDİTƏ DAİR METODİK VƏSAİT

*(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli qərarı ilə bəyənilmişdir)*

***İcraçılar:***

*Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor* — *Vahid NOVRUZOV*

*Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri* — *Nəcəf TALIBOV*

*Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi* — *Qoşqar ƏHMƏDOV*

**Bakı - 2024**

## Mündəricat


| | | |
|---|---|---|
| | Giriş | 3 |
| 1 | Sosial auditə zərurət və onun yaranma tarixi | 5 |
| 2 | Sosial auditin məqsədi, vəzifələri və əhəmiyyəti | 11 |
| 3 | Sosial auditin obyekti, subyekti, predmeti və xüsusiyyətləri | 18 |
| 4 | Sosial audit və korporativ məsuliyyət | 22 |
| 5 | Sosial auditin meyarları və standartları | 24 |
| 6 | Sosial auditin təsnifatı | 27 |
| 7 | Sosial auditin aparılma ardıcıllığı, metodları və istifadə olunan texnologiyalar | 30 |
| 8 | İstifadə olunan ədəbiyyat | 38 |

# Giriş

Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla mövcud qabaqcıl dünya təcrübəsinə əsaslanan yanaşmaların tətbiqini ön plana çəkir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində çox iş görülməlidir".

Bu baxımdan "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"da (2021-2030-cu illər) bir sıra mühüm vəzifələr müəyyənləşdirilmişdir. Ənənəvi iqtisadi inkişaf modelindən dayanıqlı inkişaf modelinə keçid şəraitində qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri ehtiva edən hesabatlılıq sisteminin qurulması və bununla əlaqədar inteqrə olunmuş hesabatlılıqla uzlaşan nəzarətin, o cümlədən müstəqil auditin əsaslarının işlənib hazırlanması, auditin yeni növ və istiqamətlərinin tətbiqi hesabına auditor xidməti bazarının genişləndirilməsi, sosial auditin inkişaf etdirilməsi bu vəzifələr sırasındadır.

Beynəlxalq təcrübə göstərir ki, müasir şəraitdə ənənəvi auditlə yanaşı auditin bir sıra növlərinə, o cümlədən sosial auditə sifarişçilər tərəfindən ehtiyac duyulur.

Başqa sözlə yeni dövr auditorlardan öz fəaliyyətlərini yalnız məcburi auditlə məhdudlaşdırmamalarını zəruri edir. Qabaqcıl audit şirkətlərinin təcrübəsi göstərir ki, onların göstərdikləri xidmətlərin çeşidi digər həmkarlarından qat-qat geniş olur. Başqa sözlə qeyri ənənəvi auditor xidmətlərinin inkişafı günün tələbi kimi qarşıda durur.

Göründüyü kimi müasir şəraitdə auditor təkcə mühasibat və maliyyə hesabatlarınn düzgünlüyünə dair fikir bildirmir. Eyni zamanda müəssisənin maliyyə iqtisadi fəaliyyətini dəyərləndirir, biznesin inkişaf perspektivlərini müəyyənləşdirir, habelə səmərəliliyin yüksəldilməsi və iqtisadi inkişafın ehtiyatlarının üzə çıxarılmasına dair tövsiyələr verir.

Sosial audit təşkilatın fəaliyyətinin sosial tərəflərini qiymətləndirməyə imkan verən mühüm vasitədir. Sosial auditin məqsədi problem və çatışmazlıqları aşkar etmək, habelə onların -aradan qaldırılması üçün tövsiyələr hazırlamaqdır.

Sosial audit aparmaq üçün məlumat toplamaq, alınan məlumatları təhlil etmək və şərh etmək üçün müxtəlif vasitələrdən istifadə etmək lazımdır. Sosial auditin effektivliyinin və nəticələrinin qiymətləndirilməsi təklif olunan tədbirlərin nə dərəcədə uğurla həyata keçirildiyini müəyyən etməyə imkan verir. Sosial auditin nəticələri iş şəraitinin yaxşılaşdırılması, işçilərin məmnunluğunun artırılması və təşkilatın sosial məsuliyyətinin gücləndirilməsi üçün istifadə edilə bilər.

Daha geniş anlamda isə, sosial auditin mahiyyəti müəssisədə, hər hansı bir fəaliyyət sahəsində və ya regionda yaranan problemli vəziyyətlərin diaqnostikası, habelə onların əhəmiyyətinin qiymətləndirilməsi, həlli yollarının tapılması və maraqlı tərəflər üçün konkret tövsiyələrin formalaşdırılmasıdır. Başqa sözlə, sosial auditin vəzifəsi - sosial risk faktorlarının təhlili və onların təsirini azaltmaq üçün təkliflərin hazırlanmasıdır.

Bu göstərilənləri nəzərə alaraq, Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.1-ci bəndində sosial auditə dair metodik vəsaitin işlənib hazırlanması nəzərdə tutulmuşdur.

# 1. Sosial auditə zərurət və onun yaranma tarixi

## Sosial auditin mahiyyəti

Sosial audit təşkilatın, onun sosial fəaliyyətinin və sosial məsuliyyətinin sistemli və obyektiv öyrənilməsi və qəbul edilmiş standart və normalara uyğunluğunun qiymətləndirilməsi prosesidir.

Sosial audit təşkilatın cəmiyyət, əməkdaşlar, istehlakçılar və digər maraqlı tərəflər qarşısında öhdəliklərini nə dərəcədə yerinə yetirdiyini müəyyənləşdirməyə imkan verir və iş şəraiti, əməkhaqqı, gender bərabərliyi, iş yerində təhlükəsizlik və sağlamlıq, sosial proqram və təşəbbüslərə töhfə, ekoloji məsuliyyət və sosial fəaliyyətin digər aspektləri kimi göstəricilərin təhlilini özündə ehtiva edir. Sosial audit iqtisadi, sosial və insani aspektlərin uzlaşdırılmasına kömək edən strateji alətdir.

Sosial audit təşkilatın sosial fəaliyyətində problemli sahələri və çatışmazlıqları aşkar edir, onların aradan qaldırılması üçün tədbirlərin işlənib hazırlanmasına və həyata keçirilməsinə dəstək göstərir. Başqa sözlə sosial audit təşkilata sosial məsuliyyətini artırmağa, işçilərinin iş və yaşayış şəraitini yaxşılaşdırmağa, onun nüfuzunu gücləndirməyə və maraqlı tərəflərin ehtiyac və gözləntilərini qarşılamağa kömək edir.

Daha geniş anlamda isə sosial audit - sosial münasibətlərin vəziyyətinin hərtərəfli və obyektiv qiymətləndirilməsidir ki, bu da müxtəlif səviyyələrdə (korporativ, bələdiyyə, sahə, regional, milli) sosial mühitin pisləşməsi ilə bağlı potensial təhlükələri müəyyən etməyə və insan resurslarının inkişafı üzrə ehtiyatları üzə çıxarmağa imkan yaradır. Başqa sözlə, sosial audit risk faktorlarını öncədən dəyərləndirməyə və şirkətin sosial siyasəti üçün faydalı olacaq tövsiyələr təklif etməyə imkan verir. Digər tərəfdən sosial auditin nəticələri sosial tərəfdaşlar arasında səmərəli dialoq üçün mühüm platformanın formalaşmasına zəmin yaradır.

Digər səviyyələr barədə yeri gəldikcə müəyyən fikirlər və tövsiyələr göstərilsə də, bu sənəddə əsasən təsərrüfat subyektləri timsalında sosial auditin yaradılması və fəaliyyəti problemləri araşdırılacaq. Biznesdə sosial audit şirkətin korporativ sosial məsuliyyət (KSM) və cəmiyyətə təsiri ilə bağlı prosedur və səylərinin düzgün qiymətləndirilməsi (və ya auditi) kimi müəyyən edilir. Bu, təsərrüfat subyektinin sosial məsuliyyət məqsədlərinə və ya ölçülərinə nə dərəcədə nail olmasının qiymətləndirilməsidir.

Prosessual nöqteyi-nəzərdən sosial audit qiymətləndirməsindən və hesabatın hazırlanmasından ibarət olmaqla, təşkilatın fəaliyyətinin səmərəliliyinin və işin təşkilinin təkmilləşdirilməsi, onun bütövlükdə cəmiyyətə təsirini ölçmək vasitəsidir. Məhz sosial audit vasitəsilə, ilk növbədə, keyfiyyətin idarə edilməsi və insan resurslarının inkişafı

üçün əlverişli şərtləri seçmək üçün təşkilat daxilində rəsmi və qeyri-rəsmi davranış qaydalarını, şirkətin fəaliyyətində maraqlı olan tərəflərin fikirlərini qiymətləndirmək mümkündür.

Daxili maliyyə auditi kimi, sosial audit də tədqiqat meyarlarının dəqiq formalaşdırılmasını tələb edir: şirkət hansı nəticələrə nail olmağa çalışır, hansı ictimai qruplar onun biznesinin uğuruna təsir edir və onun effektivliyi hansı göstəricilərlə ölçülür.

Sosial Audit




Bununla bərabər, sosial auditin əsas ideyaları birbaşa demokratiya və ictimai həyatda iştirak anlayışı ilə bağlıdır. Sosial audit dövlət orqanları ilə təmasda olan cəmiyyətin müəyyən təbəqələrinə dövlətin konkret fəaliyyətinin təsirini də araşdırır. Bu, milli məsələlərin idarə edilməsi üçün mühüm alətdir.

**Sosial auditin tarixi**

Akademik Kreps Teodor J. Kreps 1940-cı illərdə sosial audit ideyası və konsepsiyasının müəllifi kimi tanınır. Kreps biznesləri insanlara hörmətlə yanaşmaq məsuliyyətini dərk etməyə çağırıb. 1953-cü ildə Hovard R.Bouen “İş adamının sosial məsuliyyətləri” adlı məqaləsində ilk dəfə olaraq “sosial audit” anlayışını təqdim etmişdir.

Əgər 20-ci əsrin 60-70-ci illərində illik hesabatlarda və reklam kampaniyalarında “ekologiya” sözü tez-tez görünməyə başlayırdısa, 80-ci illərdə sosial auditlərin də zamanı çatdı.

Sosial tərəfdaşlıq və sosial audit yalnız XX əsrin 90-cı illərinin ortalarında inkişaf etməyə başladı.

İlk sosial audit İsveçdə (1985-88) İsveç İş Həyatı Mərkəzininin (Arbetslivscentrum) tədqiqatçıları Con Fry və Ulla Rössner tərəfindən həyata keçirilmiş və 1988-ci ildə İsveçdə Allmäna Förlaget, Stokholm (332 s.) tərəfindən "Sosial audit av ett Ämbetsverk" başlığı altında nəşr edilmişdir. Bu, İsveçin mərkəzi bürokratiyası olan Milli Əmək Bazarı Şurasının (Arbetsförmedlingen) üç illik araşdırmasının nəticəsidir. Tədqiqat bütün ölkə üzrə təşkilatın bütün səviyyələrində 1000-dən çox işçi ilə müsahibə və sorğulara əsaslanmış və İsveç Riksdaqında (parlamentində) müzakirə mövzusu olmuşdur.

Bu sosial auditin məqsədi müəyyən edilmiş xidmət, əmək mühiti və idarəetmə siyasətinin bir tərəfdən əməkdaşların və rəhbərliyin iş təcrübəsi ilə, digər tərəfdən qanunla müəyyən edilmiş və kollektiv şəkildə razılaşdırılmış məqsədlər arasında müvafiqliyini qiymətləndirmək idi. Bir sözlə, bu, demokratik rasionallığın institusionallaşmasının qiymətləndirilməsi idi. Bu tənqidi araşdırma nəticəsində hər iki tədqiqatçı İsveç tədqiqat institutunda daimi vəzifələrindən azad edildi və 1990-cı ilin avqustunda dövlət tərəfindən ödəniş alaraq İsveçi tərk edib Kanadaya köçdülər.

"Sosial audit" termini daha sonra hökumətlərin fəaliyyətinə və hesabatlılığa ictimai nəzarətdə vətəndaşların iştirakı forması olaraq da istifadə edilir. Bu kontekstdə sosial audit təşkilatın sosial və etik fəaliyyətinin müəyyən edilməsi, başa düşülməsi, hesabat verməsi və son nəticədə təkmilləşdirilməsi kimi təşəkkül tapmışdır.

Dünya təcrübəsində uzun illərdir ki, sosial auditdən istifadə olunur. Ən böyük Amerika şirkətlərinin 40%-nin və Qərbi Avropa şirkətlərinin 70%-nin fəaliyyəti hər il sosial qiymətləndirməyə məruz qalır. Avropada 2005-ci il Korporativ Sosial Məsuliyyət ili elan edilmişdir. Fransada Beynəlxalq Sosial Audit İnstitutu yaradılıb. 2006-cı ildən Böyük Britaniya və Fransada sosial audit (sosial hesabatlar dərc olunmaqla) iri şirkətlər üçün məcburidir. Həmin dövlətlərdə korporativ sosial məsuliyyət nazirləri vəzifələri tətbiq olundu və yalnız sosial hesabatlılığı olan şirkətlərə sərmayə yatıran investisiya fondları təsis olundu. ABŞ-da olduğu kimi, burada da sosial məsuliyyət daşıyan şirkətlər üçün xüsusi indekslər tətbiq edilib və bu, onların nüfuzunu artırır və cəmiyyətin sosial infrastrukturunun inkişafına töhfələrini əyani şəkildə nümayiş etdirir.

## Sosial auditə zərurət

Ətraf mühitin deqradasiyası, qloballaşma və genişmiqyaslı iqtisadi dəyişiklikləri beynəlxalq ictimaiyyətin davamlı inkişaf və sosial məsuliyyət anlayışlarına marağının artmasına səbəb olur. Daha məsuliyyətli və daha dayanıqlı iqtisadiyyatın bir hissəsi olaraq təşkilatların ümumi fəaliyyətini yaxşılaşdırmağa kömək edən sosial audit alətlərinin tətbiqinə zərurətin güclənməsi bir sıra ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında nəzərə çarpmaqdadır.

Sosial auditə zərurətin artması iki qrup amillə bağlıdır. Bunlardan birincisi iqtisadi fayda əldə etmək üçün sosial auditdən istifadə etmək istəyi ilə müəyyən edilir. Bu xüsusiyyət sosial auditin Amerika modelinə xas olan xüsusiyyətdir.

Həqiqətən də, sosial audit və sosial yönümlü tədbirlər şirkətlərə pula qənaət etməyə və mənfəəti artırmaq üçün yeni imkanlar yaratmağa dəstək verir. Müşahidələr göstərir ki, sosial auditdən keçmiş şirkətlər 6 aydan 3 ilə qədər müddət ərzində öz xərclərindən 6-12 dəfə çox gəlir əldə ediblər. Sosial audit eyni zamanda şirkətin imicini yaxşılaşdırır. Hətta şirkətlərin məhsullarının və ya xidmətlərinin keyfiyyəti, qiymətləri kimi rəqabət amilləri digər şirkətlərdəkinə bərabər olduğu hallarda belə , "yaxşı" reputasiya şirkətlərə rəqabət üstünlüyü verir.

Təcrübə həmçinin göstərdi ki, sosial audit menecerlərə maraqlı tərəflərin ehtiyaclarını daha yaxşı başa düşməyə və proqnozlaşdırmağa kömək edən bir vasitədir. Bu alət maraqlı tərəflərin maraqları, ehtiyacları və gözləntiləri haqqında əsas məlumatları təqdim edir, biznes və onun maraqlı tərəfləri arasında mövcud olan qarşılıqlı asılılığı yüngülləşdirir, birgə faydalı fəaliyyəti təşviq edir, yəni tərəflərin hər ikisinin inkişafını təmin edir.

Digər tərəfdən, sosial audit idarəetməni daha səmərəli edə bilər. O, mövcud idarəetmə sistemləri ilə inteqrasiya olunur ki, operativ qərar qəbul edən şəxslər innovasiyaları və reinjinirinqi daha effektiv idarə edə bilsinlər.

Sosial audit şirkətin strateji hədəflərinin monitorinqi texnologiyası kimi də istifadə olunur. Sosial audit prosesində şirkətin strategiyası daha anlaşılan olur və taktika ilə strategiya arasında uyğunsuzluqlar müəyyən edilir və onların aradan qaldırılması yolları tövsiyə olunur.

İkinci qrup amillər korporasiyalara sosial təzyiqlə bağlıdır. İctimaiyyət korporasiyanın fəaliyyətində şəffaflığın artırılmasında maraqlıdır. Könüllü olaraq və ya kənar sifariş nəticəsində həyata keçirilən sosial audit əldə edilən qiymətləndirmələrin və məlumatların daha yüksək səviyyədə dəqiqliyini nəzərdə tutur. Kənar formada həyata keçirilən sosial audit “Sosial audit fərdiləşdirilmiş PR-dən (piardan) başqa bir şey deyil”

kimi qeyri-münasib ifadələri aradan qaldıraraq şirkətin etibarlılığını artıra bilər. Beləliklə, sosial audit audit edilən təşkilata cəmiyyətin korporativ olaraq müəyyən etdiyi missiya və dəyərlərlə bazar mövqelərinin eyniliyini nümayiş etdirən ictimai inamı artırır.

Sosial auditə ehtiyac, təşkilatların maliyyə nəticələrindən əlavə daha geniş məsuliyyətlərə malik olduğunun getdikcə daha çox qəbul edilməsindən irəli gəlir. Sosial audit təşkilatın cəmiyyətə, ətraf mühitə və müxtəlif maraqlı tərəflərə təsirini qiymətləndirmək üçün bir vasitə kimi xidmət edir. Sosial auditə ehtiyacı izah edən əsas səbəblər və onların əsas amilləri aşağıdakı cədvəldə verilmişdir.

| **Sıra №-si** | **Ad** | **Təsviri** |
|---|---|---|
| 1. | Hesabatlılıq və Şəffaflıq | Sosial audit təşkilatın sosial, ətraf mühit və etik fəaliyyətinin şəffaf və sistemli şəkildə nəzərdən keçirilməsini təmin etməklə hesabatlılığı artırır.<br>Müştərilər, investorlar, işçilər və ictimaiyyət də daxil olmaqla maraqlı tərəflər təşkilatın cəmiyyətə təsiri ilə bağlı getdikcə daha çox şəffaflığı tələb edirlər. |
| 2. | Maraqlı tərəflərlə qarşılıqlı əlaqə | Sosial audit maraqlı tərəfləri qiymətləndirmə prosesinə cəlb edərək onlara təşkilatın fəaliyyətini qiymətləndirməyə imkan verir.<br>Maraqlı tərəflərin cəlb edilməsi müxtəlif perspektivləri və gözləntiləri anlamağa kömək edir, təşkilat və onun maraqlı tərəfləri arasında münasibətləri yaxşılaşdırmağa kömək edir. |
| 3. | Standartlara və qaydalara uyğunluq | Sosial audit təşkilatlara sosial məsuliyyət və davamlı inkişafla bağlı müvafiq qanunlara, qaydalara və beynəlxalq standartlara uyğunluğu təmin etməyə kömək edir.<br>Bu standartlara uyğunluq təkcə hüquqi öhdəlikləri yerinə yetirmir, həm də təşkilatın nüfuzunu və etibarını artırır. |
| 4. | Risklərin idarə edilməsi | Sosial audit təşkilatın əməliyyatlarına və nüfuzuna təsir edə biləcək sosial və ekoloji riskləri müəyyən etməyə kömək edir.<br>Bu risklərin erkən müəyyən edilməsi və azaldılması uzunmüddətli davamlılığı və potensial çətinliklərə qarşı dayanıqlılığı təşviq edə bilər. |
| 5. | Müntəzəm təkmilləşdirmələr | Sosial audit vasitəsilə təşkilatlar sosial və ekoloji fəakiyyətlərində təkmilləşdirmə üçün sahələri müəyyən edə bilərlər.<br>Audit prosesi təşkilatlara sosial məsuliyyətin davamlı təkmilləşdirilməsi üçün meyarlar müəyyən etməyə, hədəflər təyin etməyə və strategiyaları həyata keçirməyə kömək edir. |
| 6. | Reputasiya və brendlərin dəyərinin artırılması | Sosial audit vasitəsilə sosial məsuliyyətə sadiqlik nümayiş etdirmək təşkilatın reputasiyasını və brend |

| | | |
|---|---|---|
| | | kapitalını artıra bilər.<br>Təcrübə göstərir ki, istehlakçılar və investorlar getdikcə sosial və ekoloji rifahı fəal şəkildə təşviq edən təşkilatlara üstünlük verirlər. |
| 7. | İşçilərin əhval-ruhiyyəsi və məhsuldarlığı | Güclü sosial məsuliyyət təcrübələri olan təşkilatlar işçilər üçün çox vaxt daha cəlbedici olurlar. Sosial audit etik və məsuliyyətli biznes təcrübələrinə sadiqlik nümayiş etdirməklə işçilərin mənəviyyatını yaxşılaşdırmağa kömək edə bilər, məhsuldarlığın və loyallığın artmasına səbəb ola bilər. |
| 8. | Cəmiyyətin inkişafı | Sosial audit təşkilatlara, onların yerli icmalara təsirini anlamağa kömək edir.<br>İctimaiyyətin iştirakı və rəyləri vasitəsilə təşkilatlar müsbət əlaqələr qurmaqla cəmiyyətə müsbət töhfələr vermənin yollarını müəyyən edə bilərlər. |
| 9. | Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) uyğunluq | Bir çox təşkilatlar öz strategiyalarını BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) uyğunlaşdırırlar.<br>Sosial audit təşkilatın bu qlobal məqsədlərə nail olunmasına töhfəsini qiymətləndirməyə, onun davamlı inkişafa sadiqliyini gücləndirməyə kömək edir. |
| 10. | İnvestorların və istehlakçıların üstünlükləri | İnvestorlar və istehlakçılar investisiya və ya satınalma qərarları verərkən təşkilatın sosial və ətraf mühit göstəricilərini getdikcə daha çox nəzərə alırlar.<br>Sosial auditlər təşkilatın sosial şüurlu investorların və istehlakçıların seçimlərinə uyğun gələn məsuliyyətli biznes təcrübələrinə sadiqliyini sübut edir.<br>Buna görə də sosial auditlər təşkilatlara maliyyə göstəricilərindən kənara çıxmaq və onların cəmiyyətə və ətraf mühitə təsirini qiymətləndirməyə imkan yaratmaq məqsədi daşıyır. Bununla onlar hesabatlılığı, maraqlı tərəflərin cəlb olunmasını, risklərin idarə edilməsini, reputasiyanı və ümumi davamlılığı təşviq edirlər. |

Cədvəl 1

## 2. Sosial auditin məqsədi, vəzifələri və əhəmiyyəti

### Sosial auditin məqsəd və vəzifələri

Sosial auditin məqsədi ayrı-ayrı məsul şəxslərin fəaliyyətlərində çatışmazlıqları tapmaq deyil, təşkilatın sosial, ekoloji və ictimai məqsədlər baxımından fəaliyyətini qiymətləndirməkdir. Bu, təşkilatın öhdəlik götürdüyü ümumi dəyərlərə və məqsədlərə nə dərəcədə uyğun olduğunu ölçməyin ən sadə yoludur. Sosial audit, sistematik və müntəzəm monitorinq vasitəsilə, təşkilatın qeyri-maliyyə məqsədlərinin təsirinin, maraqlı tərəflərin fikirləri ilə dəstəklənən qiymətləndirilməsini təmin edir.

Sosial auditin məqsədləri aşağıdakı kimi təsnifləşdirilə bilər:




**№1 – Əsas Məqsədlər**

Sosial audit əməyin ədalətli və vaxtında ödənişində maraqlıdır.

Bundan əlavə, sifarişçilərə və müştərilərə ədalətli, münasib və ən yaxşı qiymətlər təklif olunur və müəssisənin biznesinin genişlənməsi, inkişafı və təkmilləşməsi onun maliyyə cəhətdən müstəqil olmasına şərait yaradır.

**№ 2 – İkinci dərəcəli məqsədlər**

Bu məqsədlər:

- işçilərin stimullaşdırılmasını, bonusların tətbiqini, onların cəmiyyətdə inkişafı kimi amilləri, habelə şirkətin fəaliyyət göstərdiyi sahənin inkişafının stimullaşdırılmasını, şirkət və sahə tərəfindən istifadə olunan metodlarda tədqiqat və inkişaf çərçivələrinin təşviq edilməsini əhatə edir.

**№3 - Ümumi Məqsədlər**

Ümumi məqsədlər iqtisadi və sosial boşluqları azaltmaq üçün kortəbii fəaliyyətlərə son qoymaqdır. Həmçinin bura işçilərin əmək şəraiti qiymətləndirilməsi, şirkətin

fəaliyyətinin və biznes əməliyyatlarının ətraf mühitə və yerli ictimaiyyətə təsirinin qiymətləndirilməsi, ictimai inkişaf üçün təşəbbüslərin formalaşdırılması və s. daxildir.

Sosial audit aşağıdakı alt məqsədlərin reallaşmasına da xidmət edir:

1. Yerli inkişaf üçün mövcud olan ehtiyaclar və resurslar arasında fiziki və maliyyə boşluğunun qiymətləndirilməsi;

2. Benefisiarların, yerli sosial və istehsalat təminatçıları arasında məlumatlılığın artırılması;

3. Yerli inkişaf proqramlarının səmərəliliyinin və nəticəliliyinin artırılması;

4. Maraqlı tərəflərin, xüsusən də aztəminatlı təbəqənin maraqlarını və prioritetlərini nəzərə alaraq müxtəlif siyasi qərarların təhlil edilməsi;

5. Maraqlı tərəflərin Dövlət satınalmalarına inklyüziv çıxışın olmamasından yaranan izafi məsrəflərin qiymətləndirilməsi.

Bu qiymətləndirmələr isə öz növbəsində sosial auditin sonrakı mümkün analitik prosedurlar sistemi və ardıcıllığında sosial auditin bir sıra vəzifələrinin icrasına zəmin yaradır. O cümlədən,

- təhlil nəticəsində əldə edilmiş hər bir sosial-iqtisadi göstəricinin səviyyəsinin müəyyən müəssisə, sahə, region üçün normal parametrlərə uyğunluğu baxımından nəzərə alınması;
- konkret sosial-iqtisadi göstəricilərin dəyərinə təsir edən amillərin müəyyən edilməsi və bu və ya digər amilin dəyişdirilməsi zamanı bu göstəricilərdə mümkün dəyişikliklərin hesablanması;
- gələcək üçün sosial-iqtisadi göstəricilərin tələb olunan dəyərlərinin proqnozlaşdırılması və bu dəyərlərə nail olmaq yollarının müəyyən edilməsi;
- sosial-iqtisadi göstəricilərini qarşılıqlı asılılığının müəyyən edilməsi və bütövlükdə müəssisənin, sahənin, regionun fəaliyyətinin səmərəliliyinin artırılmasına məqsədyönlü təsirin təmin edilməsi;
- sosial-iqtisadi göstəricilərin və müəssisənin, sənayenin, regionun vəziyyətinin fəaliyyət şəraitinin dəyişməsi ilə əlaqədar onların inkişafı üçün ehtimallarının əsaslandırılması.

Sosial audit zamanı aşağıdakı işlər həyata keçirilir:

- Toplanmış məlumatlar və sonrakı müqayisə əsasında konkret müəssisələrin, sahələrin və ya regionların sosial-iqtisadi göstəricilərinin müəyyən standartlarla müqayisə edilməsi;
- Həmin göstəricilərin təhlil edilməsi;
- Göstəricilərin müsbət və ya mənfi dinamikasının müəyyən edilməsi;

- Mövcud vəziyyətin sosial audit obyektinin fəaliyyət nəticələrinə təsirinin müəyyən edilməsi;

- Nəticə və tövsiyələrin hazırlanması.

Yuxarıda göstərilən vəzifələrin həlli sosial auditin aşağıdakı istiqamətləri üzrə araşdırmalarını zəruri edir:

• İanələr haqqında hesabatlar
• Könüllü tədbirlər
• Təşkilat daxilində şəffaflıq
• İş mühiti
• Əməkhaqqı və əmək ödənişləri
• İctimai təşəbbüslər
• İş yerində müxtəliflik
• Maliyyədə və mühasibat uçotunda şəffaflıq

Müəssisə səviyyəsində sosial audit əmək həyatının keyfiyyətinin spesifik xüsusiyyətləri ilə bağlı aşağıdakı məsələləri araşdırmalıdır:

**1. Əmək potensialı auditi:**

- peşəkarlıq;
- təhsil;
- etnomədəniyyət;
- psixofizik vəziyyət.

**2. Motivasiya sahəsinin auditi:**

- mülkiyyətə münasibət;
- əməyin profili;
- əməyin maddi həvəsləndirilməsi;
- əməyin mənəvi stimullaşdırılması;
- işçinin sosial müdafiəsi;
- erqonomika;
- işçilərin idarəetmədə iştirakı;
- korporativ mədəniyyət.

Sosial audit müəssisənin səmərəliliyinin idarə olunmasında ən mühüm amillərdən biri kimi aşağıdakı vəzifələrin həllində mühüm rola malikdir:

- əməliyyat xərclərinin azaldılması;
- nüfuz və reputasiyanın yaxşılaşdırılması (nəzərə almaq lazımdır ki, bu gün müəssisənin ədalətli bazar dəyərinin yalnız 30%-i balansda əks olunur, qalanını nüfuz, reputasiya, əməyin təşkili, nou-hau və s. təşkil edir) ;

- satışların və istehlakçı loyallığının artırılması;
- kadr axıcılığının azaldılması;
- işçilərin loyallığının və motivasiyasının artırılması (kadrları həvəsləndirmək üçün tədbirlər sistemi müəssisənin gəlirliliyini artırmağa imkan verən güclü silahdır);
- nəzarət orqanlarının təzyiqinin azaldılması;
- kapitala çıxışın təmin edilməsi.

Bütün bunlar isə müəssisənin maliyyə imkanlarının və fəaliyyətinin artmasına səbəb olur.

Sosial auditin məqsədlərindən biri də hökumətin fəaliyyətinin monitorinqi, izlənilməsi, təhlil edilməsi, qiymətləndirilməsi və bununla da dövlət məmurlarının öz hərəkətləri və qərarlarına görə məsuliyyət daşımasına imkan yaratmaqdır. Hökumət fəaliyyətinin qiymətləndirilməsi nöqteyi-nəzərindən sosial auditə, dövlət məmurlarının şəffaf, məsuliyyətli və səmərəli fəaliyyət göstərmələrinə vətəndaşların nəzarət mexanizmi kimi də baxmaq olar.

**Sosial Auditin Əhəmiyyəti**

Sosial audit sosial tərəqqinin diaqnostikası üçün real sistem yaratmağa və idarəetmə orqanları üçün obyektiv və operativ məlumat kanallarından birini formalaşdırmağa imkan verir.

Korporativ sosial məsuliyyət dövründə korporasiyalardan çox vaxt ekoloji və sosial standartlara riayət etməsi gözlənilir. Sosial audit şirkətlərə müsbət brend imicini yaratmağa, təkmilləşdirməyə, saxlamağa və əksinə şirkətin gəlirlərinə müxtəlif növ mənfi təsirin azalmasına kömək edə bilər.

Sosial auditlər şirkətlərin, xüsusilə özləri haqqında düzgün ictimai rəyi qorumaqda maraqlı olan iri, səhmləri açıq şəkildə satılan korporasiyaların ictimaiyyətlə əlaqələr sahəsində ümumi imicinə, digər tərəfdən isə, onların gəlirlərinə və səhmlərinin qiymətlərinə birbaşa və güclü təsir göstərir.

Sosial auditin aparılmasının digər əhəmiyyəti daha çox müştəri cəlb etmək üçün cəmiyyətdə şirkətin müsbət imicini yaratmaqdır. Bu, şirkətin alıcılarında müsbət təəssürat yaratmaqla yanaşı, investorları da cəlb edə bilər.

Sosial audit insan hüquqlarının qorunmasına da öz töhfəsini verə bilər. İctimaiyyətlə əlaqələr üçün də istifadə edilə bilən sosial audit qiymətləndirməsi, qərar qəbul edən şəxslərdə yerli sakinlərin inkişaf layihələrinə münasibəti barədə təsəvvür yaratmağa da imkan verir. Sosial audit aparılarkən yerli sakinlər layihə başlamazdan əvvəl öz narahatlıqlarını bildirə bilərlər. Nəticə etibarilə bu təşəbbüslərin, bütün iştirakçı tərəflərə fayda verməsi ehtimalı artacaqdır.

Başqa sözlə, vətəndaş cəmiyyəti institutlarının sosial auditə cəlb edilməsi dövlətə nəzarətçi kimi yox, ilk növbədə sosial-iqtisadi münasibətlərin əlaqələndiricisi kimi çıxış etməyə və bununla da sosial sahədə münasibətlərin tənzimlənməsi sistemini daha çevik etməyə imkan verir.

Sosial audit araşdırmalar nəticəsində maraqlı tərəflər arasında sosial - iqtisadi əlaqələrin tənzimlənməsində konsensusa nail olma məqsədi daşıyan dialoqa imkan verən sosial tərəfdaşlıq aləti kimi mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə isə, sosial audit aşağıdakılara imkan verir:

- müəssisənin insan resursları, ekologiya, sağlamlıq və təhlükəsizlik, ictimaiyyətlə münasibətləri sahəsində fəaliyyətini qiymətləndirmək;

- müəssisənin dəyər sisteminin, işgüzar etika məsələlərində fəaliyyətinin, daxili əməliyyat prosedurlarının, menecmentin təşkilinin əsas maraqlı tərəflərinin: işçilərin, təchizatçıların, istehlakçıların, sahibkarların və ictimaiyyətin gözləntiləri ilə müqayisə edilməsi;

- müəssisənin işçilərə münasibətdə sosial məsuliyyətsiz fəaliyyəti nəticəsində çəkilən xərclərin, ilk növbədə cari xərclərdən, mənfəəti azaldan sığorta ödənişlərindən və cərimələrdən yaranan məsrəfləri müəyyən etmək.

Sosial auditin əsas faydası nəzərdə tutulan sosial məqsədlərə uyğun olaraq performansın davamlı təkmilləşdirilməsinə nail olmaqdır. Bütün dünyada sosial audit təcrübələrindən səkkiz xüsusi əsas prinsip müəyyən edilmişdir. Onlar aşağıdakılardır:

| **Sıra №-si** | **Ad** | **Məqsəd** |
|---|---|---|
| 1. | Çoxperspektivli/poliqonal | Təşkilatın/şöbənin/proqramın fəaliyyətində iştirak edən və ya ona təsir edən bütün insanların (maraqlı tərəflərin) fikirlərini (səslərini) əks etdirmək (nəzərə almaq). |
| 2. | Kompleks (Tamlıq) | İşin sonunda təşkilatın fəaliyyəti və fəaliyyətinin bütün aspektləri haqqında hesabat vermək. |
| 3. | Birgə iştirak | Maraqlı tərəflərin iştirakını və dəyərlərin paylaşılmasını təşviq edir. |
| 4. | Çoxistiqamətli | Maraqlı tərəflər məlumat paylaşır və bir çox aspektlər üzrə rəy verirlər. |
| 5. | Sadə (Normal, adi) | Məqsəd müntəzəm əsaslı elə sosial hesablar (akkaunt) yaratmaqdır ki, konsepsiya və təcrübə bütün müəssisənin tam fəaliyyətini əhatə edən mədəniyyətin tərkib hissəsi olsun. |
| 6. | Müqayisəli | Təşkilatın hər il öz fəaliyyətini müvafiq kənar |

| | | |
|---|---|---|
| | | normalar və ya etalonlarla müqayisə edə bilməsi üçün bir vasitə təmin edir, həmçinin oxşar işi yerinə yetirən və oxşar üsullarla hesabat verən təşkilatlarla müqayisələr təqdim edir. |
| 7. | Yoxlama<br>. | Sosial uçot məlumatlarının təşkilatda xüsusi marağı olmayan, müvafiq təcrübəyə malik şəxs və ya qurum tərəfindən yoxlanılmasını təmin edir. |
| 8. | Açıqlama | Hesabatlılığın və şəffaflığın maraqları naminə yoxlanılmış uçot məlumatlarının maraqlı tərəflərə və geniş ictimaiyyətə açıqlanmasını təmin edir |

Cədvəl 2.

Beləliklə, sosial audit təşkilata sosial fəaliyyəti yaxşılaşdırmaq üçün tədbirlərin həyata keçirilməsinin effektivliyini izləməyə və qiymətləndirməyə də imkan verir. Bu, təşkilatın sosial məsuliyyət üzrə məqsəd və vəzifələrinə nə dərəcədə nail olduğunu müəyyən etməyə kömək edir.

Ümumiyyətlə, sosial audit təşkilatın sosial fəaliyyətinin qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün mühüm vasitədir. Bu, təşkilata sosial məsuliyyətini artırmağa, işçilərinin iş və yaşayış şəraitini yaxşılaşdırmağa, nüfuzunu gücləndirməyə və maraqlı tərəflərin ehtiyac və gözləntilərini qarşılamağa kömək edir.

**Təşkilatın sosial məsuliyyətinin qiymətləndirilməsi**

Sosial audit təşkilatın sosial məsuliyyət öhdəliklərini nə dərəcədə yerinə yetirdiyini qiymətləndirməyə imkan verir. Bu, təşkilatın işçilərinin, müştərilərinin, tərəfdaşlarının və digər maraqlı tərəflərin ehtiyac və gözləntilərinə nə dərəcədə cavab verdiyini müəyyən etməyə kömək edir.

**Problemli sahələrin müəyyən edilməsi**

Sosial audit təşkilatın sosial fəaliyyətində qeyri-kafi və təhlükəli iş şəraiti, bərabərsizlik, ayrı-seçkilik və s. kimi problemli sahələri müəyyən etməyə imkan verir. Bu, təşkilata bu problemləri həll etmək üçün prioritetləri müəyyən etməyə və fəaliyyət planlarını hazırlamağa kömək edir.

**Təkmilləşdirmə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi**

Sosial audit təşkilata sosial fəaliyyəti yaxşılaşdırmaq üçün tədbirlər hazırlamağa və həyata keçirməyə imkan verir. Auditin nəticələrinə əsasən, problemli sahələrin həlli və sosial məsuliyyətin təkmilləşdirilməsi üçün lazım olan konkret addımlar və resurslar müəyyən edilə bilər.

## 3. Sosial auditin obyekti, subyekti, predmeti və xüsusiyyətləri

### Sosial audit obyekti

Sosial auditin obyekti sosial-iqtisadi sahələrdə üç və ikitərəfli sazişlərin və kollektiv müqavilələrin, sosial tərəfdaşlıq sisteminin bütün səviyyələrində fəaliyyət göstərən sosial inkişaf plan və proqramlarının hazırlanması, qəbulu və həyata keçirilməsi kontekstində sosial-iqtisadi münasibətlərdir.

Sosial audit aparan kənar təşkilatlara dövlət qurumları, qeyri-hökumət təşkilatları (QHT), müstəqil auditorlar və ya digər üçüncü tərəf təşkilatları daxil ola bilər.
Sosial auditi həyata keçirən daxili orqanlara təşkilatın daxili audit qrupu, davamlı inkişaf departamentləri və ya təyin edilmiş komitələr daxil ola bilər.

Sosial auditin subyekti sosial və ekoloji fəaliyyətləri qiymətləndirilən təşkilat, qurum və regionlardır.

### Sosial audit predmeti

Sosial auditin predmeti mövcud normativ sənədlərin (qanunlar, fərmanlar, sazişlər, müqavilələr, sərəncamlar, əsasnamələr, göstərişlər və s.) təhlili yolu, habelə sahə tədqiqatları, sorğular, müsahibələr, monitorinqlər, statistik məlumatlar vasitəsilə sosial-iqtisadi münasibətlərin tədqiqinin bütün səviyyələrindən daxil olan etibarlı və obyektiv sosial-iqtisadi məlumatdır.

Sosial auditdə əsas predmet təşkilatın sosial, ekoloji və etik fəaliyyətinin təsdiqinə dair sənədləşmədir.

### Sosial auditin xüsusiyyətləri

Sosial auditin xüsusiyyətlərini ehtiva edən əhatə dairəsi müxtəlif və geniş ola bilər. Sosial auditə daxil edilən rəhbər prinsiplərdən və mövzulardan bəzilərinə aşağıdakılar daxildir:

- Şirkətin fəaliyyətinin nəticəsinin ətraf mühitə təsiri;
- Əhaliyə və ya ətraf mühitə təsirlərlə bağlı hər hansı problemlər barədə məlumatlarda şəffaflıq;
- Mühasibat uçotu və maliyyə şəffaflığı;
- İcmanın inkişafı və maliyyə töhfələri;
- Xeyriyyə yardımı.
- İşçilərin könüllülük fəaliyyətləri;
- Enerji istifadəsi və ya onun ətraf mühitə təsiri;
- Təhlükəsizlik, ayrı-seçkilik edilməməsi və bərabər imkanlar daxil olmaqla iş mühiti;
- İşçilərin əməkhaqqı və güzəştlər;

• Ayrı-seçkiliyə yol verməmə təcrübəsi;

• Müxtəliflik.

Şirkətlər məqsədlərindən asılı olaraq sosial auditin miqyasını artırmağa və ya azaltmağa imkan verir. Şirkət öz fəaliyyətinin konkret bir şəhərə və ya bütün regiona, ölkəyə və ya dünyaya necə təsir edəcəyini müəyyən etmək üçün auditin əhatə dairəsini genişləndirməyə qərar verə bilər.

**Üstünlüklər**

Planlaşdırmada yerli icmaya kömək edir;

Cəmiyyətdə demokratik funksiyanı dəstəkləyir;

Yerli icmanın fəal iştirakını təşviq edir;

Təşkilatın imicini daxili və kənar ictimaiyyətin nəzərində yaxşılaşdırmağa kömək edir;

İnsan resurslarının inkişafına kömək edir.

Aşağıdakılar bütövlükdə təşkilatlara müxtəlif sahələrdə sosial məsuliyyət duyumunu qiymətləndirməyə imkan verən hərtərəfli sosial auditin əsasını təşkil edən elementlər və nümunələrdir:

1. **Ətraf mühitin davamlılığı**. Burada əhatə olunan məsələlərə təşkilatın ətraf mühitə təsiri, resurslardan istifadə, tullantıların emal edilməsi və karbon emissiyalarının azaldılması səylərinin qiymətləndirilməsi daxildir. Audit təbii ehtiyatların və xammalın məsuliyyətli idarə edilməsi də daxil olmaqla, resurslardan istifadənin hərtərəfli nəzərdən keçirilməsini əhatə edir. Bundan əlavə, tullantıların idarə olunması təcrübələri diqqətlə qiymətləndirilir və təşkilatın tullantıları minimuma endirmək və təkrar emalı təşviq etmək üçün effektiv strategiyalar həyata keçirməsini təmin edir. Nümunələrə istixana qazlarının emissiyalarının ölçülməsi, davamlı mənbə təcrübələrinin qiymətləndirilməsi və ətraf mühitə zərərin minimuma endirilməsi üçün təşəbbüslərin araşdırılması daxildir.

2. **Etik biznes davranışı**. Bu, işçilərə ədalətli münasibətin qiymətləndirilməsi məsələsinə ehtiva edir. Diqqət çəkən məqamlardan biri ədalətli məşğulluq təcrübələrinin dərin təhlilidir ki, bu da işçilərlə ədalətli və düzgün davranılmasını təmin etmək üçün siyasətlərin ətraflı nəzərdən keçirilməsini və onların həyata keçirilməsini əhatə edir. Audit təşkilatın inklüziv və etik iş mühiti yaratmaq öhdəliyini qiymətləndirmək üçün müxtəliflik, bərabər imkanlar və ədalətli əməkhaqqı kimi amillərin qiymətləndirilməsini əhatə edir. Nümunələrə işçilərin iş şəraitinin qiymətləndirilməsi, təchizat zənciri etikasının nəzərdən keçirilməsi və anti-korrupsiya siyasəti və təcrübələrinin tədqiqi daxildir.

3. **İctimaiyyət ilə əlaqə**. Buraya, ictimaiyyətlə qarşılıqlı münasibətlərin dəyərləndirilməsi daxildir. Dəyərləndirmə təşkilatın cəmiyyətdə iştirak səviyyəsinin ətraflı araşdırılması ilə başlayır. Bu proses təşkilatın yerli icma ilə nə dərəcədə qarşılıqlı əlaqədə olduğunu və onun ictimai həyatında iştirakının müəyyən edilməsini nəzərdə tutur. Bu, qarşılıqlı faydalı münasibətləri təmin etmək üçün icma üzvləri ilə əməkdaşlıq, tərəfdaşlıq və dialoqu əhatə edə bilər. Nümunə olaraq cəmiyyətlə iş üzrə proqramların nəzərdən keçirilməsini, xeyriyyəçilik fəaliyyətinin müəyyən edilməsini və yerli iqtisadiyyata təsirin qiymətləndirilməsini göstərmək olar.

4. **İşçilərin rifahı**: Bu istiqamətdə qiymətləndirmə işçilərə verilən müavinətlərin hərtərəfli yoxlanılması ilə başlayır. Buraya kompensasiya paketlərinin, sağlamlıq müavinətlərinin, pensiya planlarının və işçi qüvvəsinin ümumi rifahının yüksəldilməsi üçün nəzərdə tutulmuş digər tədbir və imtiyazların ətraflı nəzərdən keçirilməsi daxildir. Audit sahəvi standartlara cavab verilməsini təmin etmək və işçilərin məmnuniyyətini və işdə saxlanmasını təşviq etmək üçün bu müavinətlərin yetərliyini və ədalətliliyini diqqətlə nəzərdən keçirir. İş yerində təhlükəsizlik tədbirlərinin öyrənilməsi digər bir vacib aspektdir. Audit təşkilatın təhlükəsiz və etibarlı iş mühiti yaratmaq öhdəliyini qiymətləndirir. Buraya iş yerlərində bədbəxt hadisələrin qarşısını almaq və işçilərin güzəranını yaxşılaşdırmaq üçün əməyin mühafizəsi prosedurlarının qiymətləndirilməsi, təlim təşəbbüsləri və tədbirlərin həyata keçirilməsi daxildir. Nümunələrə işçilərin məmnuniyyəti sorğularının təhlili, sağlamlıq və təhlükəsizlik təşəbbüslərinin nəzərdən keçirilməsi, müxtəliflik və inklüziv təşəbbüslərin qiymətləndirilməsi daxildir.

5. **Maraqlı Tərəflərin cəlb edilməsi**: Burada müzakirə olunan məsələlər maraqlı tərəflərin cəlb edilməsi mexanizmlərinin və kommunikasiya strategiyalarının qiymətləndirilməsini əks etdirir. Qiymətləndirmə təşkilatın müxtəlif maraqlı tərəflərlə qarşılıqlı əlaqədə istifadə etdiyi mexanizmlərin hərtərəfli araşdırılması ilə başlayır. Buraya konstruktiv qarşılıqlı əlaqəni asanlaşdırmaq, rəy toplamaq və maraqlı tərəfləri qərar qəbuletmə proseslərinə cəlb etmək üçün istifadə olunan kanallar və platformalar üzrə araşdırmalar daxildir. Audit təşkilatın qarşılıqlı fəaliyyət strategiyalarının dərinliyini və effektivliyini başa düşməyə yönəlmişdir.

Kommunikasiya strategiyalarına təşkilatın aydınlıq və şəffaflıq da daxil olmaqla, öz maraqlı tərəfləri ilə necə ünsiyyət qurmasının ətraflı təhlili daxildir. Audit müxtəlif kommunikasiya kanallarından istifadəni, yenilənmələrin tezliyini və müvafiq məlumatların müxtəlif maraqlı tərəflərə çatdırılmasının effektivliyini qiymətləndirir.

6. **Qaydalara əməl olunması**. Bu sahədə sosial audit müvafiq qanunlara və hüquqi tələblərə uyğunluğu yoxlayır. Qiymətləndirmə təşkilatın müvafiq qanunlara,

qaydalara və sahəvi standartlara riayət etmək üçün zəruri tədbirlərin görülməsini təmin etmək üçün yoxlama prosesi ilə başlayır. Buraya təşkilatın fəaliyyətinin qanunlara və hüquqi tələblərə uyğunluğu təmin etmək üçün tətbiq etdiyi prosedurların və sistemlərin ətraflı yoxlanılması daxildir. Audit təkcə bu tədbirlərin mövcudluğunu deyil, həm də uyğunluğun təmin edilməsində onların effektivliyini təsdiq etməyə yönəlir.

Hüquqi tələblərə uyğunluğa təşkilatın sosial və etik məsuliyyətlərinə təsir edən yerli, milli və beynəlxalq qanun və qaydaların ətraflı təhlili daxildir. Auditin məqsədi təşkilatın bu qanuni tələblərdən xəbərdar olduğunu deyil, həm də onları öz fəaliyyətinə fəal şəkildə inteqrasiya etdiyini təsdiq etməkdir. Nümunələrə əmək qanunlarına uyğunluq, ətraf mühitə uyğunluq və sənaye etik prinsiplərinə uyğunluq daxildir.

## 4. Sosial Audit və Korporativ məsuliyyət

